# 525-ci qəzet

7 yanvar 2003-cü il, çərşənbə axşamı, №3 (1361). Qiymɵti 980 manat

www.525ci.com


M. F. Axundov adına Azərbaycan Dövlət KİTABXANASI


www.525ci.com

Azərbaycan

ingilis

rus dillərində

Hər an yeniləşir


# İqtidar müxalifətlə dialoqu zəruri sayır

ƏLİ HƏSƏNOV: "ATƏT-in MÜZAKİRƏLƏRİNDƏ HƏM BİR FAİZLİK BARYERİ AŞAN, HƏM DƏ MAJORİTAR QAYDADA PARLAMENTDƏ TƏMSİL OLUNAN PARTİYALAR İŞTİRAK ETMƏLİDİR"

**Prezidentin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənov: "Düşünürük ki, müxalifət ATƏT-in dialoq təklifini qəbul edəcək və beləliklə, bütün maraqlı tərəflər yanvarın ikinci yarısında təşkil olunacaq müzakirələrə qatılacaq. Hakimiyyət hesab edir ki, müzakirələrdə bütün maraqlı tərəflər iştirak etməlidir. Həm Milli Məclisə 2000-ci ildə keçirilən seçkilərdə bir faizlik baryeri aşan partiyalar, həm də majoritar qaydada parlamentdə təmsil olunan digər siyasi qurumlar müzakirələrə qatılmalıdır. Düşünürük ki, bu, bütün siyasi spektrin fikrini əhatə etmək üçün ən yaxşı variantdır"**



Təqribən bir ay öncə ictimaiyyətə açıqlanan Seçki Məcəlləsi ilə bağlı müzakirələr yeni vüsət alıb. Məcəllədən narazı olan müxalifət qüvvələri həm iqtidar, həm də müxalifət təmsilçilərinin iştirakı ilə razılaşdırma komissiyasının yaradılmasını və bu komissiyanın Seçki Məcəlləsinin üzərində yenidən işləməsini istəyirlər. Xatırladaq ki, təklifləri nəzərə alınmadığından müxalifət liderləri ATƏT-in Məcəllənin müzakirəsinə həsr etdiyi Dəyirmi masalarında iştirakdan imtina etmişdilər. Bu günlərdə isə ATƏT iqtidarla müxalifət arasında konsensusun əldə olunması üçün yeni təklif irəli sürüb. ATƏT razılaşdırma komissiyasının əvəzinə parlament seçkilərində bir faizdən yuxarı səs toplamış bütün partiyaların nümayəndələrinin iştirakıyla kontakt qrupunun yaradılmasını təklif edir.

ADP baş katibi Sərdar Cəlaloğlu "525"in müxbiri ilə söhbətində ATƏT-in təklifində təqdir olunan məqamlarla yanaşı etiraz doğuran müddəaların da olduğunu bildirib: **"Orada bir sıra məsələlər bizim üçün qaranlıqdır. Bu baxımdan düşünürük ki, o təkliflər ATƏT-in nümayəndəsi ilə bir daha canlı şəkildə müzakirə olunmalıdır. Biz razılaşdırma komissiyasının yaradılmasını istəyirik. Onlar isə bu ifadəni qəbul etmirlər. Biz danışıqların iqtidarla müxalifət arasında getməsini təklif etdiyimiz halda onlar əlavə partiyaları ora qoşmaqla bunu partiyalar arasında danışıq şəklinə salıblar. Biz ATƏT-in bu məsələdə vasitəçilik etməsini və prezidentin səlahiyyət verdiyi şəxsin iştirakını təklif edirdik. Ancaq bunların heç biri yoxdur. ATƏT-in təkliflər paketində digər qəribə müddəalar da var. Guya kontakt qrupunun ilkin iclasında kim iştirak edibsə, o sonrakı proseslərdən çıxsa belə bütün prosesin iştirakçısı hesab olunur. ATƏT-in təklifinə görə, iqtidar və müxalifət arasında razılaşdırılmamış müddəalar parlamentə göndərilməlidir.**

Ardı 3-cü səh.

## İran səfirliyinə məxsus iki avtomobil qəzaya uğradı

Dünən saat 19-da Bakının Moskva prospektində yol-qəza hadisəsi baş verib. Nəticədə 4 avtomobil toqquşub. Maşınlardan ikisi İranın Azərbaycandakı səfirliyinə məxsusdur. Bakı Şəhər Baş Polis İdarəsindən "Turan"a verilən məlumata görə, hadisə nəticəsində iranlı diplomatlardan xəsarət alan olmayıb. Azərbaycan dövlət nömrə nişanlı "Mersedes" avtomobilində olan bir nəfər yaralanıb.

İranın Bakıdakı səfirliyindən bildiriblər ki, onlarda hadisə ilə bağlı məlumat olmadığından hər hansı şərh vermək istəmirlər.

## 2003-cü il üçün iş vaxtının illik norması müəyyənləşdirilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 2003-cü ildə iş vaxtının balansını müəyyənləşdirib. Nazirlikdən "Em-Pi-Ey"ə verilən məlumata görə, 20 yanvar - Milli matəm günü, 11 fevral - Qurban bayramı, 8 mart- Beynəlxalq Qadınlar Günü, 20-21 mart - Novruz bayramı, 9 may - Faşizm üzərində qələbə, 28 may - Respublika günü, 15 iyun - Milli Qurtuluş günü, 26 iyun - Azərbaycan Silahlı Qüvvələri Günü, 18 oktyabr - Dövlət Müstəqilliyi Günü, 17 noyabr - Milli Dirçəliş günü, 25 noyabr - Ramazan bayramı, 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi günü - iş günləri hesab olunmur. 40 saatlıq iş həftəsində iş vaxtının illik norması 1982 saatdır.

## GUÖAM ləğv oluna bilər

**"MDB çərçivəsində azad ticarət zonasının yaradılması GUÖAM və Avrasiya İqtisadi Birliyi kimi qurumların ləğvinə səbəb ola bilər".** Bu fikir Belorusiya və Ukrayna prezidentləri - Aleksandr Lukaşenko və Leonid Kuçmanın telefon danışığında səslənib. "Em-Pi-Ey"in məlumatına görə, tərəflər birlik ölkələrinin dövlət başçılarının yanvarın sonuna Ukraynada keçirilməsi nəzərdə tutulan qeyri-formal görüşünün gündəmini müzakirə ediblər. Hər iki ölkənin lideri birlik məkanındakı vəziyyət, "beşliyin" və Avrasiya İqtisadi Birliyinin üzvləri arasında qarşılıqlı münasibətləri barədə fikir mübadiləsi aparıblar.

## MDB ölkələrinin dövlət başçıları Ukraynaya toplaşacaq

MDB ölkələri dövlət başçılarının qeyri-rəsmi sammitinin yanvarın ikinci yarısında Ukraynanın İvano-Frankovsk vilayətinin Karpatlar şəhərində keçirilməsi nəzərdə tutulur. Bu barədə "Trend" agentliyinə diplomatik mənbələrdən məlum olub. Sammitin dəqiq tarixi hələlik məlum deyil. MDB üzvü olan bütün ölkələrlə görüşün tarixi və gündəliyi razılaşdırıldıqdan sonra sammitin keçirilmə vaxtı müəyyən ediləcək.

Bu görüş zamanı dövlət başçıları 2002-ci ildə əməkdaşlığın yekunlarını və qəbul etdikləri qərarların yerinə yetirilməsinin nəticələrini müzakirə edəcək, həmçinin 2003-cü il üçün iş planı hazırlayacaqlar. Müzakirə ediləcək məsələlərdən biri də MDB dövlət başçıları şurasında sədrliyin Ukrayna prezidentinə keçməsi olacaq. Müzakirələrin daha bir mühüm mövzusu MDB ölkələrinin iqtisadi əməkdaşlıq problemləri, xüsusilə azad ticarət zonasının yaradılması məsələsi olacaq.

## Xəzər Dəniz Gəmiçiliyi gəmilərini sığorta etdirmir

MÜTƏXƏSSİSLƏR SON İKİ QƏZADA DƏYƏN ZİYANIN 5 mln. DOLLAR OLDUĞUNU DEYİRLƏR

Xəzər Dəniz Gəmiçiliyi (XDG) 2003-cü ildə də öz gəmilərini sığorta etdirməyib. Bu barədə "Turan"a Gəmiçilikdən bildiriblər. Eyni zamanda, Gəmiçilikdə "General Şıxlinski" tankeri və "Merkuri-2" bərəsindəki qəzalarda həlak olmuş və zərər çəkmiş heyət üzvləri və sərnişinlərə görə ödəmələr üzrə tam məlumat verməkdən imtina ediblər. Gəmiçiliyin baş mühasibi İltifat Babayev bildirib ki, bütün zərərçəkənlərə qanunda nəzərdə tutulan məbləğ ödənilib və bu, Gəmiçiliyin rəisi Aydın Bəşirovun xidmətidir. Yada salaq ki, "General Şıxlinski" tankerinin həlak olmuş üzvlərinə görə ödəmələr "Merkuri-2" bərəsi qəzaya düşdükdən sonra başlanılıb.

Dəniz sığortası sahəsində mütəxəssislərin fikrincə, Xəzər Gəmiçiliyinin gəmilərin sığortasına başısoyuq yanaşması Xəzər dənizində yükdaşıyanlar arasında rəqabətin olmamasından qaynaqlanır. Xəzər qapalı hövzədir və orda yükdaşıyanların dairəsi məhduddur. Xəzər Gəmiçiliyi daşımaların həcminə görə liderdir. Yarısı sığorta edilməmiş Rusiya gəmilərinin durumu da oxşardır. Ekspertin sözlərinə görə, belə durum yalnız Xəzərdədir. Məsələn, Qara dənizdə heç bir müştəri yükdaşıyanın məsuliyyətinin və ekoloji risqlərin sığortası olmayan heç bir gəmiçilik şirkətinə müraciət etməz.

Gəmiləri sığorta etdirməyən Xəzər Dəniz Gəmiçiliyi Azərbaycan Respublikasının "Texniki təhlükəsizlik haqqında" qanununu pozur. Qanunda deyilir ki, təhlükə doğura biləcək obyektləri işlədən fiziki və hüquqi şəxslərin bu obyektlərdə baş verən qəzalar nəticəsində həyata, sağlamlığa, əmlaka və ətraf mühitə dəyə biləcək zərər üzrə məsuliyyəti icbari sığortalanmalıdır.

Xatırladaq ki, son iki qəzada dəyən ziyan 5 mln. dollar səviyyəsində qiymətləndirilir. Maraqlıdır ki, "Merkuri-2"yə yüklənmiş neftin və sisternlərin sahibi olan Qazaxıstan tərəfi 400 min dollar səviyyəsində qiymətləndirilən zərərin ödənməsini tələb etməyib.

## Azərbaycanın xarici borcu 1 milyard dollardan çoxdur

BU İL BÜDCƏ TƏŞKİLATLARI İŞÇİLƏRİNİN ƏMƏK HAQLARININ ARTIRILACAĞI GÖZLƏNİLİR



2003-cü ilin yanvarına olan məlumatlara əsasən, Azərbaycanın xarici borcu 1,35 milyard ABŞ dollarına bərabərdir. Bu barədə maliyyə naziri Əvəz Ələkbərov məlumat verib. Onun sözlərinə görə, respublikada adambaşına 169 dollar kredit düşür. Nazir deyib ki, bu, qonşu ölkələrdəkindən 3-5 dəfə azdır. Ölkədəki sabit makroiqtisadi durum Azərbaycana Dünya Bankı, Beynəlxalq Valyuta Fondu kimi beynəlxalq təşkilatlardan vaxtlı-vaxtında güzəştli kreditlər almağa imkan verir.

Ə.Ələkbərov bildirib ki, 2003-cü ildə dövlət büdcəsinin həcmi keçən ilkinə nisbətən 15,5 faiz çoxdur. Büdcə kəsiri 1 faizə, inflyasiya isə cari ildə 2 faiz ətrafında tərəddüd edəcək, investisiya xərcləri 2 faiz artacaq. Ə.Ələkbərovun sözlərinə görə, Dövlət Neft Fondundan büdcə problemlərini həll etmək üçün büdcəyə 100 milyon dollar köçürüləcək.

Nazir həmçinin qeyd edib ki, 2003-cü ildə büdcə təşkilatları işçilərinin əmək haqqının, həmçinin pensiyaların artırılacağı gözlənilir.

## Hollandiyada yaşayan azərbaycanlılar Haaqa məhkəməsi qarşısında piket keçirəcəklər

ONLAR HƏMİN ÖLKƏDƏKİ RUSİYA KONSULLUĞUNUN QARŞISINA QARA LENTLƏRLƏ BƏZƏDİLMİŞ ƏKLİL QOYACAQLAR

Səh. 2

## "Güney Azərbaycanın səsi" radiosu sabahdan fəaliyyətə başlayacaq

GÜNEY AZƏRBAYCAN MİLLİ OYANIŞ HƏRƏKATININ LİDERİ MAHMUDƏLİ ÇÖHRƏQANLI SƏHHƏTİ AĞIRLAŞAN HƏRƏKATÇI MƏHBUSLARI ACLIĞI DAYANDIRMAĞA ÇAĞIRIB

Səh. 3

## Böyük qazanxanalar enerji israfı mənbəyidir

KİLOMETRLƏRLƏ UZANAN İSTİ SU BORULARI ƏLAVƏ MATERİAL, İŞÇİ QÜVVƏSİ VƏ ENERJİ TƏLƏB EDİR

Səh. 6

## SABAHDAN "525"də

## Əkrəm Əylisli: "Əlvida, Moskva"

**✓..."Tverskoy bulvar" - çılınçılpaq - qarşımda durmuşdu...** Bir vaxt bu bağda uca-uca ağaclar vardı. Bir vaxt burada bir də bir skamya vardı. Və bir gün mən dərsdən çıxıb, yataqxanaya sarı gedəndə Nazim Hikməti o skamyada tək-tənha oturan görmüşdüm. O adam doğrudanmı sən idin, Nazim əfəndi: tənha, yazıq, ümidsiz və işıqsız...

✓...Moskva həmin Moskvaydı: cəngavər kimi əzəmətli və qız kimi məsum... Bəs bu 10 ildə, görəsən, mənə nə olmuşdu ki, indi mən bu şəhərdə nə kiməsə zəng eləmək, nə kimsənin qapısını açmaq istəyirdim: nə bir nəşriyyatın - redaksiyanın, nə də hər hansı bir köhnə tanış-bilişin...

**✓...O gecə yeməkxanadan çıxıb, yatmağa gedəndə - bizim Muradyanla söhbətimiz** bəlkə heç 5 dəqiqə də çəkmədi. Ancaq elə o beşcə dəqiqəlik "atüstü" söhbətin içində Muradyanın vaxt tapıb, bu sualı verməyi mənə, sözün düzü, çox dəhşətli göründü: "HEYDƏR ƏLİYEVİN SƏHHƏTİ NECƏDİR?"

**✓...Axı, doğrudan da, o nəydi, o necə şeytan əməliydi?..** Adamların, həm də illər boyu özümə çox yaxın bildiyim adamların məndən birdən-birə üz döndərməyinin əsas baiskarı kimdi, nəydi, görəsən?.. Mən bu suala gör nə vaxtdan bəriydi ki, hər gün cavab axtarırdım...



***Yazıçı Əkrəm Əylislinin "Əlvida, Moskva" adlı yeni xatirə-oçerkini sabahdan başlayaraq "525-ci qəzet"in səhifələrində oxuculara təqdim edəcəyik.***

## Bu gün Rəcəb Teyyub Ərdoğan Bakıya gəlir

SƏFƏR ZAMANI O, AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVLƏ VƏ DİGƏR RƏSMİ ŞƏXSLƏRLƏ GÖRÜŞƏCƏK



Bu gün Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının başçısı Rəcəb Teyyub Ərdoğan Bakıya ikigünlük səfərə gəlir. Bu barədə "Trend" agentliyinə diplomatik mənbələrdən məlum olub.

Ərdoğan Bakıya axşam şəxsi təyyarəsində 100-ə yaxın məmur, biznesmen və jurnalistin müşayiəti ilə gələcək.

Ardı 4-cü səh.

## "Bakı-Ceyhan"ı "kommandos" mühafizə edəcək

MÜHAFİZƏDƏ AMERİKA RADARLARINDAN DA İSTİFADƏ OLUNACAQ



**"Gürcüstan Amerikanın "Nortrop Qrup" şirkətilə "Bakı-Tbilisi-Ceyhan" kəmərinin keçdiyi ərazidə hava nəzarəti sisteminin yaradılması haqda saziş imzalayıb"** - deyə Gürcüstan Beynəlxalq Neft Korporasiyasının (GBNK) prezidenti Georgi Çanturiya bildirib. Gürcüstan ərazisində ABŞ-ın Əfqanıstanda istifadə etdiyi radarlara analoji radarlar yerləşdiriləcək.

Ardı 5-ci səh.

## Milli Elmlər Akademiyasına elmi təşkilat statusu verildi

DÖVLƏT BAŞÇISI HEYDƏR ƏLİYEV MAHMUD KƏRİMOVU AKADEMİYANIN PREZİDENTİ TƏYİN ETDİ



Prezident Heydər Əliyev "Azərbaycan Milli Elmlər Akademiyasının statusu haqqında" fərman imzalayıb. Sənədə görə, MEA ölkədə elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, respublikada bütün elmi müəssisələrin və ali məktəblərin elmi tədqiqat fəaliyyətini əlaqələndirən və istiqamətləndirən, Azərbaycan elmini xarici ölkələrdə təmsil edən ali elmi təşkilatdır. Azərbaycan MEA-nın prezidenti akademiyanın ümumi yığıncağında seçilir və Azərbaycan prezidenti tərəfindən təsdiq olunur. MEA prezidenti illik elmi tədqiqatın nəticələri haqqında hesabatı hər il aprelin 20-də dövlət başçısına təqdim edir.

Digər fərmanla isə Mahmud Kərimov MEA prezidenti təsdiq olunub. Prezident H.Əliyevin daha bir fərmanı ilə Azərbaycan Aerokosmik Agentliyi Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin tərkibindən çıxarılıb və MEA-nın tabeliyinə verilib. Agentliyin baş direktoru Arif Mehdiyev Ali Attestasiya Komissiyasının sədri təyin olunduğuna görə, bu vəzifədən azad edilib.

## Cənubi azərbaycanlılar erməni nazirin Təbrizə gəlişinə hiddətlənib

"RƏSMİ TEHRANIN BU ADDIMI DÜNYA ERMƏNİLƏRİNƏ MÜSBƏT MÜNASİBƏTİN TƏZAHÜRÜDÜR"



2002-ci il dekabrın sonlarında Ermənistanın ticarət nazirinin Güney Azərbaycanın paytaxtı Təbrizə səfəri şəhərdə etirazla qarşılanıb. Bu barədə Cənubi Azərbaycan Parlamenti Təşəbbüs Qrupunun (CAP TQ) üzvü Aslan Xalidi "Turan"ın müxbirilə söhbətində bildirib. Onun sözlərinə görə, Ermənistan nazirini səfərə Təbriz şəhərinin valisi dəvət edib. Səfərdə Dağlıq Qarabağ separatçılarının təmsilçiləri də iştirak edib və İran mətbuatı onları tacir kimi qələmə verib.

Ardı 5-ci səh.

## ATƏT-in növbəti monitorinqi bu ay keçiriləcək

ANJEY KASPRŞİK AZƏRBAYCAN ORDUSUNUN BİR NEÇƏ KƏNDİ İŞĞALDAN AZAD ETMƏSİ BARƏDƏ MƏLUMATLARI TƏKZİB EDİR



Ötən il Ermənistan-Azərbaycan münaqişə
xəttində atəşkəsə əsasən əməl olunub. Bu ba-
rədə ATƏT-in fəaliyyətdə olan sədrinin şəx-
si nümayəndəsi Anjey Kasprşik bir qrup azər-
baycanlı jurnalistlə dünənki söhbətində deyib.
Bununla yanaşı, o qeyd edib ki, atəşkəs reji-
minin pozulması ilə bağlı bəzi faktlar qeydə
alınıb və onların sayı ilin axırına yaxın artıb.

Ardı 5-ci səh.


ОКНА, ЖАЛЮЗИ № 1

Окна и оконные системы (PVC) собственного производства

INTIBAH SANI Amarant

от 9$

г. Баку, ул. Зорге, 5 (за отелем "Абшерон"). Тел: 98-58-88, 93-27-33.

Вертикальные; Горизонтальные: 16-25 мм. Защитные жалюзи; Рулонные шторы Антикомариные сетки; Гаражные ворота с ДУ

# Faiq Qarayev: "Demirəm ki, ruslara 100 faiz uduzacağıq"

AMMA "AZƏRREYL" İTALİYALILARLA "ÖLÜM-DİRİM" MÜBARİZƏSİNƏ ÇIXACAQ

**Yeni ilin gəlişiylə əlaqədar əksər idman növlərində "nisbi sakitlik" hiss olunsa da, qadınlardan ibarət "Azərreyl" komandası bu sırada istisnalıq təşkil edir. Çempionlar liqasının qrup mərhələsinin birinci dövrəsini 2 qalibiyyət və 1 məğlubiyyətlə başa vuran xanımlarımız yeni ili elə məşq prosesində qarşılayıblar. Faiq Qarayevin yetirmələrinin gündə 6-7 saat məşq etməsini başa düşmək çətin deyil. Belə ki, sabah "Azərreyl"i rəqib meydanında "Uraloçka" ilə revanş oyunu gözləyir. Vətəni dünən tərk edən həmyerlilərimiz ruslarla oyundan 4 gün sonra Moskva-Milan reysiylə İtaliyaya - "Modena"yla matça yollanacaqlar. Komandadakı ümumi vəziyyətlə tanış olmaqdan ötrü baş məşqçi Faiq Qarayevlə görüşdük. Şübhəsiz ki, F.Qarayevin ötən il üçün ölkəmizin ən yaxşı məşqçisi sayılması da diqqətimizdən yayınmadı.**



*- 2002-ci ilin ən yaxşı məşqçisi tituluna layiq görüldünüz. Maraqlıdır, Faiq Qarayev üçün bundan böyük daha hansı mükafat var?*

- Xatirinizdədirsə, mən bu adı hələ 4 il öncə Türkiyədə də almışam. 1998-ci ildə "Vakıfbank"la ölkə çempionluğunu və kubokunu qazanmışdıq. Elə həmin ildə də Çempionlar liqasının final oyununa çıxmışdıq. Bunları nəzərə alıb mənə ilin məşqçisi adını vermək istəyirdilər. Amma namizədlər arasında Fatih Terim, Bencamin Toşak kimi adlar olduğundan bir qədər tərəddüd edirdilər. Üstəlik türklər bu titulu Terimə vermək fikrindəydilər. Düzdür, sorğu nəticəsində opponentlərimi kifayət qədər qabaqlamışdım. Lakin sonda, necə deyərlər, bu titulun böyrünə "əcnəbi" sözü artıraraq məni "ilin ən yaxşı əcnəbi məşqçisi" seçdilər. Doğma vətənimdə ən yaxşı adına layiq görülməyimsə təbii ki, mənim üçün şərəfli haldır. Çünki mən Azərbaycanda ilk dəfədir ki, bu titula layiq görülürəm. İlin məşqçisi seçilməyimdə azərbaycanlı olmağım, vətənimə, millətimə qarşı sevgim böyük rol oynadı. Özümdə məhz bu cəhətləri birləşdirməyim Azərbaycana döndükdən cəmi 1 il sonra "Azərreyl"-in "Top-komanda" kubokunu qazanmasına səbəb oldu. Bu mükafat mənim üçün çox əzizdir. Amma təkcə öz ölkəmdə ən yaxşı seçilməklə kifayətlənmək istəmirəm. Mən qarşıma Avropa üzrə ilin ən yaxşı məşqçisi seçilmək məqsədi qoymuşam.

*- 2002-ci ildə reallaşdıra bilmədiyiniz və 2003-cü ilə keçən arzularınız hansılardır?*

- Ötən il biz hardasa şanssızlıqla üzləşdik. Çünki mövsümqabağı "Əczaçıbaşı"dan Qodinanı transfer etməyi planlaşdırmışdıq. Təəssüf ki, bu, baş tutmadı. Əgər "Azərreyl"də Qodina və Qorxmaz birgə oynasaydı mən 100 faiz əminliklə deyirəm ki, biz çempionlar liqasının finalına çıxardıq. Bundan başqa biz 2002-ci ildə qarşıya məqsəd qoyduğumuz maksimum nəticənin 90 faizini həyata keçirmişik. Ötən il "Azərreyl"in "Top-komanda" kubokunu qazanmasıyla yanaşı Azərbaycan yığması dünya çempionatının seçmə matçlarında da qənaətbəxş oyun göstərdi. 4 illik diskvalifikasiyadan sonra seçmə mərhələdə iştirak edən yığmamız Hollandiya, Türkiyə və Fransa komandaları ilə "ölüm qrupu"na düşməsinə baxmayaraq rəqiblərindən geri qalmırdı. Hətta seçmə oyunların son saniyəsinə qədər dünya çempionatının final mərhələsinə vəsiqə qazanmaq şansımız var idi. Sadəcə, idman xoşbəxtliyi bizdən üz döndərdi. Bilirsiz, ilboyu bütün yarışlarda uğur qazanmaq qeyri-mümkündür.

*- Sizcə ölkə voleybolunun ən böyük problemi nədir?*

- Hazırda, ən ağrılı yerimiz ölkədə voleybol çempionatının keçirilməməsidir. Fikir verin, son dəfə dekabrın 18-də "Uraloçka" ilə oynamışıq, növbəti dəfə isə yanvarın 8-də meydana çıxacağıq. Bu müddət ərzində biz yalnız məşq etməklə kifayətlənirik. Bir ölkədə də belə şey yoxdur.

*- İnessa Qorxmazın durumu necədir?*

- Qorxmazın müalicəsi hələ də davam edir. Əslində, o, türklərlə oyundan 3 gün əvvəl cərrahiyə olunmalı idi. Ancaq mən özüm bilərəkdən Qorxmazı "Əczaçıbaşı"yla görüşə saxlamışdım. Bununla biz taktiki fənd işlədirdik. Yəni komandada ucaboy oyunçu olması rəqiblərə mənfi təsir göstərirdi. Hər halda İnessa türklərlə oyunda meydana çıxmasa da bizə yardımçı oldu. İndi Qorxmazın yığmamıza üzv olmasından ötrü ruslarla danışıqlar gedir. Gələcəkdə komandaya əlavə bir voleybolçu da cəlb etsək, onda yığmanın qitə və dünya miqyaslı yarışlarda nailiyyət əldə etməsi üçün stimul yaranır. Hərdən mətbuatda yazırlar ki, Azərbaycana qıraq voleybolçu lazım deyil, yerli gənclərə üstünlük verilməlidir. Başa düşmürəm, bu gün italiyalılar, türklər milli komandaya qıraq oyunçu cəlb edə bilər, biz yox? Türkiyə yığmasında 2 legioner oynayır. Məgər çempionatında 16 komandası iştirak edən ölkədə yerli voleybolçu tapılmır?

*- "Azərreyl"də 3 zədəli var. Üstəlik, "Uraloçka"ya ilk matçda uduzmuşuq. Bunlar komandaya səfəröncəsi mənfi təsir edibmi?*

- Qəti. Ruslarla oyunu qalibiyyətlə başa vura bilərdik. Amma 2 kobud səhvin güdazına getdik. Bu səhvləri buraxmağım beyin yorğunluğuyla əlaqədar idi. Məncə, "Uraloçka"nın Bakıya gəlişi özü bir bayramdır. Məğlub olmağımız ikinci planda qalır. Çünki hansısa zəif kluba yox, dünyanın aparıcı komandalarından birinə uduzduq. Ruslarla qarşılaşmada qazandığımız təcrübə bizə çox kömək edəcək.

*- Faiq müəllim, sonda sizə belə bir sualla müraciət etmək istərdik. Qarşıda sizi gözləyən iki səfər qarşılaşmasından minimum hansı nəticəni gözləyirsiniz?*

- Ümumiyyətlə bu oyunlardan azı bir qələbə gözləyirik. Açığı, bundan artığına ümid etmək düzgün olmazdı. "Uraloçka" ilə görüş həddən artıq çətin olacaq. "Modena"yla qarşılaşmaya gəlincə, biz italiyalılarla "ölüm-dirim" mübarizəsinə çıxacağıq. Demirəm ki, ruslara 100 faiz uduzacağıq. Ola bilər, qələbə qazanaq. Ancaq istənilən halda "Modena"nı məğlub etməliyik. Əgər rusları udub, italiyalılara uduzsaq, onda növbəti mərhələyə çıxmaq işini daha da çətinləşdirəcəyik. Bəri başdan qeyd edim ki, "Əczaçıbaşı" ilə Bakıdakı oyun da gərgin keçəcək. Çünki, həm mən bir vaxtlar Türkiyədə işlədiyimdən - burda prinsip məsələsi var, həm də qrupda sonuncu yeri tutan komanda turniri tərk etdiyindən "Əczaçıbaşı" var qüvvəsiylə oynayacaq.

# Besçastnı "Fənərbaxça"da

"İSTANBULLULARIN QOL PROBLEMİ HƏLL OLUNDU"



Nəhayət, "Fənərbaxça" klubu "transfer pəncərəsi"ndə ilk müqaviləyə imza atdı. Söhbət Rusiya milli komandasının və "Spartak"ın hücumçusu Vladimir Besçastnıdan gedir. İstanbullular 2 gün əvvəl Londonda rus futbolçuyla görüşərək onunla tam razılığa gəliblər. Müqavilənin müddəti açıqlansa da (2,5 il) məbləğ gizli saxlanılır. İngiltərə paytaxtında istirahət edən 29 yaşlı hücumçu "Fənər"lə razılaşması barədə fikirlərini belə bölüşüb: **"Bir neçə gün əvvəl "Fənərbaxça" rəsmilərindən Sadəttin Saranla görüşdük və o, mənə gözəl bir təklif etdi. Təklifin sərfəli olduğunu görüb mən də öz növbəmdə türklərə müsbət cavab verdim. "Spartak"la şərikli heç nəyimiz qalmayıb".** Besçastnı İstanbul klubunu qiyabi də olsa tanıdığını vurğulayıb: **"Sözsüz, hamı kimi mən də "Fənərbaxça"nı tanıyıram. Xüsusilə "Qalatasaray"la olan rəqabətindən xəbərdaram. Komandanın Orteqa kimi ulduzu var. Azarkeşlər narahat olmasın. Artıq "Fənər"in qol problemi həllini tapıb".** Türklər rus futbolçunu ən yaxın günlərdə İstanbulda görə biləcəklər.

# Xatirə turnirində qalmaqal

"TURAN AIR" - "TRİBUT" MATÇI YARIMÇIQ DAYANDIRILDI

Allahverdi Səfərovun xatirəsinə həsr olunan turnirə yekun vuruldu. 8 komandanın iştirakı ilə təşkil olunan yarış Olimpiya-İdman kompleksində keçirilib. "Olimpiya sistemi" üzrə oynanılan turnirin yarımfinalında "Turan AIR" - "Tribut" cütlüyü görüşüb. Görüşün maraqlı olacağını nəzərə alan azarkeşlər gərgin oyun izləmək arzusuyla kompleksə təşrif buyurmuşdular. Amma... İnsaf naminə matçın ilk hissəsi maraqlı və baxımlı oldu. Bundan başqa birinci hissənin qolsuz bərabərliklə bitməsi ikinci hissənin nə dərəcədə gərgin keçəcəyindən xəbər verirdi. Hissənin əvvəlində Hacıbala Abdullayevin yetirmələri rəqib qapısı qarşısında bir neçə təhlükəli epizod yaratsalar da hücumlar bəhrəsiz qalırdı. Ancaq elə bu dəqiqələrdə "Turan AIR"-li müdafiəçilərin kobud səhvi Rəcəb Fərəczadənin fərqlənməsiylə nəticələndi. "Turan AIR"in baş məşqçisi Elman Ələkbərovun vəziyyətini həmin anlarda başa düşmək elə də çətin deyildi. Komandasının qeyri-qənaətbəxş oyunu və üstəlik hakimin səriştəsizliyi baş məşqçini özündən çıxarmışdı. Bunun nəticəsi olaraq E.Ələkbərov səhvləriylə fərqlənən hakim Yusif Əliyevi ara-sıra təhqirlərə "qonaq" edirdi. Y.Əliyevin növbəti səhvi isə oyunda həlledici oldu. Hakimin qərarından çaşbaş qalan "Turan AIR"lilərin hərəkətsiz qalmasından yararlanan rəqib komanda hesab arasındakı fərqi artırdı -2:0. Y.Əliyev qəribə də olsa, qolu hesaba aldı. Ələkbərov oyunçularını meydandan çıxarmaqla uduzduqlarını təsdiq etdi. Lakin baş məşqçi belə asan təslim olmaq fikrində deyildi. Belə ki, qarşılaşmadan sonra o, haqq-hesabı "çürütmək" istəyilə Yusif Əliyevlə dəhlizdə üz-üzə gəldi. Yəqin ki, orada bəzi şəxslər olmasaydı bizə əlbəyaxa döyüş səhnəsini görmək də nəsib olacaqdı.

Bəli, ölkənin aparıcı klublarından 2-sinin qarşılaşması bu sonluqda bitdi. Görəsən, Azərbaycanda futzalın yüksəlişindən dəm vuranlar bu hadisələri necə qiymətləndirəcəklər?..

Qeyd edək ki, digər yarımfinal görüşündə "Odlar Yurdu Universiteti" "Terminal"la qarşılaşıb. Heyətində olimpiya yığmasına çağırılmayan Rəşad Abdullayev və Aqşin Ömərovun da forma geydiyi "tələbə"lər oyunu 4:1 hesablı qələbə ilə başa vurublar. Elə oyunun qəhrəmanı da hettrikə imza atan Rəşad olub. Turnirin həlledici oyununda isə Hacıbala Abdullayevin rəhbərlik etdiyi "Tribut" "Odlar Yurdu Universiteti"ni minimal fərqlə (2:1) üstələyərək yarışın qalibi adını qazanıb.

# FİFA azərbaycanlı hakimlərin adlarını müəyyənləşdirdi

FİFA 2003-cü il üçün qitə və dünya miqyaslı yarışlara çıxacaq azərbaycanlı hakimlərin siyahısını açıqlayıb. Cari il ölkəmizi beynəlxalq turnirlərdə baş hakim kimi Xaqani Məmmədov, Zöhrab Hacıyev və İmanxan Sultani təmsil edəcək. Onlara Munis Abdullayev, İlham Əliyev, Ramiz Əsədov, Azad Hüseynov, Ruhulla Kərimov və Eldar Nağıbəyov kömək edəcəklər. Dünyanın ən ali futbol qurumu xanımlarımızdan Venera Muradova və Səbinə Hüseynovaya üstünlük verib. Babək Quliyev, Murad Məmmədov və Azad Mütəllimov "trio"su isə futzal meydanlarında ədalət təmsilçiləri olacaqlar.

**Materialları hazırladı: AQŞİN**



AZƏRBAYCANDA YENİLİK!
Kitab çap etdirmək istəyirsinizsə,
BİZƏ —
Peşəkarlara müraciət edin!
yığım,
dizayn,
səhifələmə
və korrektura
pulsuzdur.
"ÇİNAR-ÇAP" nəşriyyatı.
"ÇİNAR-ÇAP" mətbəəsi.
Əlaqə telefonları:
90-27-57; 93-72-55; 98-95-55;

CAZİBƏDAR GÖRÜNMƏK İSTƏYİRSİNİZSƏ

- Piy qatlarının liposaksiya üsulu ilə sorulması.
- Döşlərin böyüdülməsi və kiçildilməsi.
- Plastik əməliyyatlar (üzdə, burunda, gözdə, qulaqda, qaşlarda, üz dərisinin çəkilməsi, boyunda, qarında, ayaq və əllərdə).
- Qırışların qarşısını almaq üçün üzə platin, qızıl liflərin salınması.
- Yan və ayaqların kökəldilməsi.
- Dodaqların böyüdülməsi, əllərin cavanlaşdırılması, burun-dodaq büküşlərində qırışların əməliyyatsız müalicəsi.
- Kəsilmiş vətərlərin və sinir kötüklərinin bərpası.
- Başın dərisinə saç əkdirmə
- Ayaqlarda damar genişlənməsinin əməliyyatsız müalicəsi.
Əməliyyatları estetik cərrahiyyə sahəsində böyük təcrübəsi olan professor Camal Əzimzadə aparır.
Yüksək keyfiyyət-sərfəli qiymətl
Ünvan: Hidayətzadə 45,"Funda" tibb mərkəzi.
Tel: 40-98-66, 66-28-44, 67-55-82, Mob: (850) 210-26-30

Şollar


Cavanlıq Mənbəyi
tel.:90-72-29 e-mail:dushes@shollar.com


Rəşad Məcid və Yaşar Əliyev Eldəniz Quliyevə **ANASInın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ramiz Rövşən Eldəniz Quliyevə **ANASInın** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nüşabə Sadıxlı, Ramiz Rövşən və Hacı Cəfərli Yasin İsgəndərova və Mirhaşım Seyidliyə əzizləri **SAFURA XANIMın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rəşad Məcid, Nofəl Qasımov, Tahir Hüseynov, Elxan Məmmədov, Elxan Mustafayev Nazim Abduləzimova atası **NƏSİR KİŞİnin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nüşabə Sadıxlı və Hacı Cəfərli Eldəniz Quliyevə **ANASInın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Altay Əliyev Məzahir Süleymanzadəyə qardaşı **AKİFin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**1985-ci ildə S.A.Dadaşov adına Kirovabad Baza İnşaat Texnikumu tərəfindən Təhməzov Murad Musa oğlunun adına verilmiş ZT-037596 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.**


Euro-Asian Trading
KOMANDOR
KOMANDOR
(Kanada) Şkaf-kupe
Geniş çeşidli hərtərəfli mebel

Salonların ünvanı:
BAKI, S.Rüstəm küçəsi 7,
Tel: 92-41-63
faks-tel: 40-95-48
mob: (850) 361-95-48

ƏN UCUZ QİYMƏTLƏR
Yüksək keyfiyyət
10 il zəmanət



Qəzet 1992-ci il noyabrın 17-dən çıxır.
Baş redaktor: Rəşad Məcid
Redaktor: Yaşar Əliyev
Baş redaktor müavini: Yusif Rzayev
Redaktor müavinləri: Kamran Həsənli, Seyfəddin Hüseynli
Məsul katib: Qalib
Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
Ünvan: 370033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 66-67-98, 66-93-40
Faks: 66-25-20
İnternet ünvanı: www.525ci.com
E-mail: 525@azdata.net
informasiya@525ci.com
qazet@525ci.com
Qəzet "Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunub.
Lisenziya: B-484-ABN 022684 Təsisçi: "525" şirkəti
Mətbuat və İnformasiya Nazirliyi.
İndeks: 0046, tiraj: 2525, sifariş: 45
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər. "TURAN", "EM-Pİ-EY", "ŞƏRQ", "TREND", "OLAYLAR", və "AZADİNFORM"un informasiyalarından istifadə olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.